*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:14.06.2025*
*Kabul tarihi |Accepted:05.10.2025*
*Yayın tarihi |Published:25.10.2025*

**Aygun Azimova**

***https://orcid.org/0000-0002-1119-1856***
*Senior reserarcher, PhD in history, Institute of History and Ethnology, Azerbaijan National Academy of Sciences, Azerbaijan, aygun.azimova77@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Azimova, A. (2025). Bakı Hümmət Təşkilatı 1917–1918-ci illərdə: Sosialist Amallar və Siyasi Reallıqlar. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (5), 929-953.

# Bakı Hümmət Təşkilatı 1917–1918-ci illərdə: Sosialist Amallar və Siyasi Reallıqlar

***Xülasə***

*Bu məqalədə Bakı Hümmət təşkilatının 1917–1918-ci illərdəki fəaliyyəti tarixi və siyasi kontekstdə kompleks şəkildə təhlil olunur. Müsəlman sosial-demokratları tərəfindən yaradılmış bu təşkilatın fəaliyyətinə tarixşünaslıqda münasibət müxtəlif dövrlərdə fərqli olmuşdur. Sovet dövründə Hümmətin fəaliyyəti sovet hakimiyyətinin qurulması prosesində mühüm siyasi amil kimi qiymətləndirilmiş və ideoloji baxımdan yüksək qiymətləndirilmişdir. Lakin XX əsrin 80-ci illərinin sonlarından etibarən sovet ideoloji sisteminin dağılması bu mövzuya yanaşmalarda da ciddi dönüş yaratmış, Hümmət təşkilatının fəaliyyəti kəskin tənqid obyektinə çevrilmişdir. Məqalədə memuaristik materiallar, dövr mətbuatı və arxiv sənədlərinin yeni interpretasiyası əsasında Hümmətin fəaliyyətini şərtləndirən sosial, siyasi və milli amillər araşdırılır. Tədqiqat nəticəsində təşkilat daxilində fikir ayrılıqlarının hələ 1917-ci ilin oktyabrında özünü göstərməyə başladığı və bu ayrılıqların Mart 1918 hadisələrindən sonra daha da dərinləşdiyi müəyyən edilir. Eyni zamanda, bolşeviklərin siyasətinin Hümmət üzvləri üzərində yaratdığı təsir, onların ideoloji amalları ilə siyasi reallıqlar arasında yaşadıqları ziddiyyətlər və təşkilatın bu fon üzərində formalaşan fəaliyyət istiqamətləri təhlil edilir.*

***Açar sözlər:*** *Hümmət Təşkilatı, Müsəlman Sosialistlər, Bakı Soveti, Müsavat Partiyası, Nəriman Nərimanov, Mirməmməd İsrafilbəyov*

# The Baku Hummat Organization in 1917–1918: Socialist Ideals and Political Realities

***Abstract***

*This article provides a comprehensive historical and political analysis of the activities of the Baku Hummat Organization during 1917–1918. Established by Muslim social democrats, the organization's role has been interpreted differently in historiography across various periods. During the Soviet era, Hummat's activities were viewed positively within the framework of the struggle for the establishment of Soviet power in Azerbaijan. However, with the collapse of Soviet ideology in the late 1980s, attitudes in historiography toward Hummat shifted, and the organization's political position came under sharp criticism. This article seeks to offer an objective examination of the organization's activities based on memoirs, periodicals, and newly interpreted archival sources. The study identifies the key social, political, and national factors shaping Hummat's operations during this time. It is revealed that internal*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

*disagreements among members began to emerge as early as October 1917 and deepened significantly after the March 1918 massacres. The article also explores how Bolshevik policies influenced Hummat members, highlighting the tension between their socialist ideals and the political realities they faced.*

***Keywords:*** *Hummat Organization; Muslim Socialists; Baku Soviet; Musavat Party; Nariman Narimanov; Mirmammad Israfilbeyov*

## Giriş

Azərbaycan tarixşünaslığında tədqiqinə ideoloji yanaşmaların ciddi təsir göstərdiyi, eyni zamanda mənəvi yük daşıyan məsələlərdən biri Hümmət təşkilatının tarixidir. Fəaliyyəti birmənalı qarşılanmayan və Azərbaycan cəmiyyətində ciddi qınaq və ittiham obyekti olan hümmətçilərin fəaliyyətinə obyektiv elmi qiymət verilmədən, Azərbaycanın 1917–1920-ci illər tarixi ilə bağlı bir çox sual cavabsız qalır. Hümmətin fəaliyyəti bütövlükdə Azərbaycanda sol təşkilatların tarixinin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.

Müsəlman sosialistlərinin bir qolu olan Hümmət təşkilatı 1917–1918-ci illərdə Azərbaycanda baş verən siyasi mübarizənin aktiv iştirakçılarından biri olmuşdur. Həmin dövrdə Azərbaycan milli qüvvələrinə qarşı müxalif mövqedə olan və eser, menşevik, bolşeviklərin daxil olduğu sosialist düşərgəsinin tərkibinə daxil edilən hümmətçilər sonradan bolşevizm ideologiyası ilə praktikasının ziddiyyətinin qurbanına çevrilmişdir. Onların siyasi taleyi, xüsusilə 1917–1918-ci illərdəki fəaliyyəti bu səbəbdən xüsusi diqqət doğurur.

XX əsrin əvvəllərində dünyada geniş yayılmış sosial-demokratizm ideyaları rus inqilabçıları vasitəsilə Bakıya çatmış və müsəlman ziyalı və demokratlarını təsiri altına alaraq 1904-cü ildə Hümmət təşkilatının yaranmasına səbəb olmuşdur. Çarizmin sərt idarəçiliyinə qarşı çıxan bu ideologiya, radikal baxışları ilə Azərbaycan ziyalıları arasında rəğbətlə qarşılanmışdır. 1905–1907-ci illər Rus inqilabından sonra azərbaycanlı ziyalılar hələ də Rusiya imperiyasında müsəlman əhalisinin vətəndaş hüquqlarının tanınması məsələsini gündəmə gətirirdilər. M.Ə. Rəsulzadənin 1907-ci ildə sosial-demokrat partiyasına verdiyi qiymət bu yanaşmanın göstəricisidir:

*“Bu firqə hüquqsuzların, məzlum və məfluqların firqəsidir... Doğrudur, sosial-demokratiya milliyyətə düşməndir. Lakin həqiqi milliyyətə deyil, kavıçkaya keçirilən milliyyətə əksdir ki, onların da zidd olduğu o ‘millətdir’ ki, özgə millətləri məhv və müzməhlil etmək istiyor”* (Rəsulzadə, 2013, s. 75).

Çarizm dövründə jandarm idarəsinin sənədlərində təşkilatın fəal üzvləri sırasında M.Ə. Rəsulzadə, M.Əzizbəyov, S.M. Əfəndiyev, M.Ə. Mirqasımov, M.H. Hacınski, A. Kazımzadə, S. Yaqubov, Q. Qarabəyov, H. Sultanov və digərlərinin adları çəkilir. Mirzəbala Məmmədzadənin xatirələrinə əsasən, 1903-cü ildə M.Ə. Rəsulzadə və onun silahdaşları “Gənc İnqilabçılar” adlı bir təşkilat qurmuşdular ki, bu da sonradan Hümmət təşkilatının əsasını təşkil

etmişdir (Bagirova, 1998). Hümmətin formalaşmasına dair İsa bəy Aşurbəylinin xatirələri də mühüm məlumat verir. Onun bildirdiyinə görə, əvvəlcə "Hümmət" adlı inqilabi əhval-ruhiyyəli qəzet nəşr edilirdi. Bu nəşr M.Ə. Rəsulzadə, M. Rəsulzadə, M.Ə. Mirqasımov, Ə. Qurbani və T. Nağıyev tərəfindən hazırlanırdı. Sonradan S. Mövsümov və İ. Aşurbəylinin təşəbbüsü ilə bu qrup Hümmət təşkilatına çevrilmişdi. Hümmətin fəaliyyəti və xüsusilə H.Z. Tağıyevə qarşı çıxışları Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) Bakı Komitəsinin diqqətini çəkmiş və bu səbəbdən komitə Hümməti öz sıralarına qatmağa çalışmışdır (ARPİİİSSA, fond 456, siyahı 18, iş 50, vərəq 4). Bu faktlar göstərir ki, Hümmət təşkilatı sovet tarixşünaslığında iddia edildiyi kimi bolşeviklər tərəfindən yaradılmayıb, əksinə, azərbaycanlı gənclər və ziyalılar tərəfindən formalaşdırılmış müstəqil sosial-demokrat təşkilatı olmuşdur.

Təşkilatın Gəncə, Şuşa, Naxçıvan və Culfada şöbələri mövcud idi. Lakin Tiflis şöbəsi həm üzv sayı, həm də siyasi fəallığı baxımından seçilərək mühüm rol oynayırdı. Tiflis Hümməti Gürcüstan sosial-demokratiyasında üstünlük təşkil edən menşevik xəttini təqib edirdi. Ən fəal üzvlər sırasında D. Yüzbaşov, A. Bayramov, M.B. Mirheydərzadə, K. Camalbəyov, İ. Vəzirov, Q.A. Hacınski, A.K. Xanəhmədov və başqaları yer alırdı (Azərbaycan tarixi, 2001, s. 108).

Hümmətin tarixini ümumiləşdirərək qeyd etmək lazımdır ki, çarizmin milli-siyasi zülmünün güclü olduğu bir zamanda, siyasi cəhətdən yetkin olmayan və siyasi fərqliləşməsi zəif olan azərbaycanlılar arasında sosial-demokrat ideyalarının yayılması çətin olsa da, Hümmət fəallarının bu sahədəki fəaliyyəti nəticə vermiş və təşkilat 1909-cu ildə təqiblər səbəbilə fəaliyyətini dayandırmalı olmuşdur.

1917–1918-ci illərdə isə milli-demokratik hərəkatın yüksəlişi fonunda Hümmət bolşeviklərin siyasi xəttini rəhbər tutaraq fəaliyyətini bərpa etmiş və yenidən siyasi mübarizəyə qatılmışdır. Hümmət sosial ziddiyyətləri qabartmaqla sinfi mübarizə xəttini seçmiş, bu yolla xalqın rifahını təmin etmək məqsədini güdmüşdür. Halbuki, milli qüvvələr bu ziddiyyətlərə müvəqqəti olaraq göz yummağı seçmişdilər. Hümmət təşkilatının fəaliyyəti zəif sosial bazaya malik olsa da, cəmiyyətin müəyyən təbəqəsinin baxışlarını ifadə edirdi və Cümhuriyyətə müxalif mövqe tutaraq sonradan Sovet hakimiyyətində yer aldı. 1920-ci illərdə isə onların mövqeyində müəyyən dəyişikliklər baş verərək milli meyllərin artması müşahidə olunurdu.

Sovet dövrü tarixşünaslığında Hümmət təşkilatının fəaliyyəti yüksək qiymətləndirilmiş, lakin 1980-ci illərin sonlarından başlayaraq bu yanaşma tənqidi məcraya keçmişdir. Hümmətçilər Müsavat Partiyasına müxalif olduqları üçün mənfi qiymətləndirilmiş, lakin bu yanaşma onların fəaliyyətinə obyektiv qiymət verilməsinə mane olmuşdur.

Professor İradə Bağırova həm sovet, həm də Qərb tarixşünaslığında Hümmətə dair yanaşmaların fərqliliyini qeyd edir. Onun fikrincə, sovet tarixşünaslığı Hümmət üzvlərinin tam şəkildə bolşevik fraksiyasına daxil olduğunu əsas götürürdü. Halbuki, Qərb tarixşünaslığı, xüsusilə də R. Suny Hümməti müstəqil siyasi fenomen kimi təqdim edirdi; onun fikrincə, Hümmət müsəlman fəhlələr arasında bolşevik dəstəyinin əsas daşıyıcısı idi və erməni sosialist təşkilatlarına qarşı güc balansını təmin edirdi (Suny, 1990). Bağırova isə bu iki yanaşmanın da tam obyektiv olmadığını vurğulayır (Bagirova, 1998). Təşkilatın fəaliyyətini araşdırmaq üçün əsas mənbə həmin dövrün mətbuatı, xüsusilə "Hümmət" qəzetidir. Bu qəzetdə Hümmətin fəaliyyətinə və onun üzvlərinin mövqeyinə dair məqalələr dərc olunmuşdur. Bundan başqa, dövrün müxtəlif siyasi baxışlara malik müasirlərinin və Hümmət üzvlərinin xatirələri də əhəmiyyətli mənbə rolunu oynayır. Araşdırmalar zamanı bu xatirələrə və sənədlərə istinad edilmişdir. Bildirilir ki, təşkilatın iclas protokolları və gündəlik fəaliyyətinə dair sənədlər Mart hadisələri zamanı İsmailiyyə binasının yanması nəticəsində məhv olmuş, sonrakı dövrə aid sənədlər isə ingilislərin Bakıya daxil olmasından əvvəl məhv edilmişdir (ARPİİİSSA, fond 303, siyahı 1, iş 46, vərəq 6).

**Hümmət Təşkilatının Öz Fəaliyyətini Bərpa Etməsi**

Fevral inqilabından dərhal sonra, Azərbaycanda bir çox siyasi təşkilatlar kimi, Hümmət təşkilatı da öz fəaliyyətini bərpa etmişdir. 1917-ci ilin mart ayında keçirilmiş ümumi yığıncaqda Nəriman Nərimanov (sədr), Dadaş Bünyadzadə, Mövsüm İsrafilbəyov (Qədirli), Həmid Sultanov və Məşədi Əzizbəyov daxil olmaqla, təşkilatın müvəqqəti komitəsi formalaşdırılmışdır (Ocherki Communisticheskoy Partii Azerbaydzhana, 1963). Bu zaman təşkilatın muxtar strukturda saxlanılması və ya bolşeviklərin Bakı komitəsinə birləşdirilməsi məsələsi ciddi müzakirə predmeti olmuşdur. Bolşeviklər milli sosial-demokrat təşkilatların ayrıca mövcudluğunu qəbul etməsələr də, müsəlman əhalinin psixoloji vəziyyəti və Hümmətin özünəməxsus keçmişi nəzərə alınaraq, təşkilatın adı və struktur müstəqilliyi saxlanılmışdı (Bolsheviki v borbe..., 1957, s. 5). Bu, formal olaraq muxtariyyət təsəvvürü yaradırdı.

T. Swietochowski Hümmət ilə bolşevik partiyası arasındakı münasibətlərin qeyri-müəyyən olduğunu qeyd edərək, bu əlaqələrin ziddiyyətli terminlərlə ifadə olunduğunu vurğulamışdır. Onun fikrincə, Hümmətə tanınan muxtariyyət partiyanın mərkəzi deyil, yerli Bakı komitəsi tərəfindən təqdim olunduğuna görə bu güzəşt qeyri-sabit xarakter daşıyırdı (Swietochowski, 1978).

1917-ci ilin iyul ayının 26-da Petroqradda çağırılmış Rusiya Sosial Demokrat Fəhlə Partiyasının VI qurultayında çıxış edən P. Caparidze bu məsələyə belə aydınlıq gətirmişdi: *"Hümmətin artıq möhkəmlənmiş təsiri var idi. Onunla bir vaxtda inqilabdan sonra Müsəlman*

*Milli Şurası yaranmışdı. Biz bu təşkilatla mübarizə və bir sıra digər məqsədlərə görə əvvəlki adı saxladıq”* (Bolsheviki v borbe..., 1957, s. 5). “Başqa səbəblər” ifadəsi dəqiq izah olunmasa da, bu hal Hümmət təşkilatının müstəqil qalmaq istəyi ilə bağlı ola bilərdi. Bu isə, öz növbəsində, həmin dövrdə müxtəlif milli sosial-demokrat təşkilatların – məsələn, yəhudi "Bund" və erməni spesifiklərinin – mövcudluğu və sosial-demokrat ideologiyasının, xüsusilə bolşevizmin formalaşmaqda olan məzmununun tam dərk edilməməsi ilə əlaqədar idi.

1917-ci ildə müsəlman fəhlələr arasında muxtar təşkilatların yaradılması ideyası dəfələrlə gündəmə gəlmişdi. Məsələn, aprelin 28-də Binəqədi mədənlərinin təxminən 500 müsəlman fəhləsi (azərbaycanlı, ləzgi, tatar) müstəqil müsəlman fəhlə komitəsi yaratmaq qərarına gəlmişdilər (Azimov, 1987). Lakin Bakı Sovetində yer alan sosialist partiyaların – xüsusilə eser, menşevik və daşnakların – üstün mövqedə olması səbəbindən, bu təşəbbüslərə laqeyd yanaşılmışdı. Müsəlman fəhlələrinin siyasi yetkinliklərinin yetərsiz olduğu iddia edilərək onların sovet orqanlarında təmsilçiliyinə qarşı çıxılırdı. “Müsəlman komitəsinin xəbərləri”ndə Bakı Sovetinə aşağıdakı suallar ünvanlanmışdı:

*“1. Niyə görə indiyə kimi mədənlərdəki müsəlman fəhlələr təşkil olunmayıblar və ya muxtar nümayəndəlik ala bilməyiblər? 2. Niyə görə, rus dilini bilməmələrinə rəğmən, Bakı rayonunda müsəlman fəhlələrin muxtar təşkilatlarına olan hüququ inkar edilir?”* (Kaspiy, 27 maya 1917).

Qeyd etmək lazımdır ki, həmin dövrdə bolşeviklər menşeviklərdən yeni ayrılmışdılar və sosialist düşərgədə zəif mövqedə idilər. Bu səbəbdən onlar müsəlman fəhlələri öz tərəflərinə çəkməyə çalışır, əsərlərin və menşeviklərin Qafqazda müsəlman millətçilərinə qarşı ayrı-seçkilik siyasətini tənqid edir və ümumi millətçilik əleyhinə çıxışlar edirdilər (Bakinskiy rabochiy, 14 iyun 1917).

Sovet tarixçisi Y. Drabkina, Bakıda bolşeviklərin müsəlman fəhlələrə münasibətini belə xarakterizə edir: *“Çoxmillətli Bakıda milli əsasda qruplaşma qaçılmaz idi. Belə bir şəraitdə beynəlmiləlçilik şüarı ilə çıxış edən bolşeviklər qalib gəlmək üçün əsl beynəlmiləlçilik nümayiş etdirməyə məcbur idilər”* (Drabkina, 1931, s. 83). Onun fikrincə, “zülm edən” millətə mənsub olan rus bolşevik fəhləsi ilk olaraq beynəlmiləlçi mövqe nümayiş etdirməli və bu yolla “zülm olunan” millət nümayəndələrində etimad və rəğbət yaratmalı idi.

Bu səbəbdən idi ki, bolşeviklərin Bakı Komitəsinin 1917-ci il mayın 19-da keçirilən iclasında müsəlmanlar arasında təbliğat işinin gücləndirilməsi, Azərbaycan dilində (daha çox “tatar dili” kimi qeyd edilirdi) qəzetlərin nəşri və Bakı Sovetində müsəlman nümayəndələrin

sayının artırılması məsələləri müzakirə olunaraq qəbul edilmiş və təbliğat işi üçün 200 rubl ayrılmışdı (Bakinskiy pabochiy, 28 maya 1917, s. 3).

Başqa sözlə, rus fəhlələrinin eser və menşeviklərin, erməni fəhlələrinin isə daşnakların təsiri altında olması səbəbindən siyasi mübarizənin müəyyən mərhələsində bolşeviklər, Bakı fəhlə kütləsinin yarısını təşkil edən azərbaycanlılar, həmçinin digər müsəlman xalqları (ləzgi, tatar, iranlı və s.) arasında təsirlərini gücləndirmək məqsədilə Hümmət təşkilatını vasitə kimi görməyə başlamışdılar. Hümmət və bolşevik təşkilatları arasında əlaqələrin qurulması, xüsusilə qeyri-müsəlman bolşeviklər arasında azərbaycanlılar tərəfindən ən çox rəğbət qazanmış şəxs olan P. Caparidzenin rəhbərliyi ilə həyata keçirilmişdi. O, çıxışlarında “ölü canlar”ın Sovetdən uzaqlaşdırılmasını və müsəlmanların burada daha geniş təmsil olunması zərurətini vurğulayırdı (İsvestiya Bakinskogo Soveta, 11 iyun 1917, s. 3). Bu dövrdə bolşeviklərin dəstəyi ilə Hümmət təşkilatının müxtəlif siyasi tədbirlərdə iştirakına imkan yaradıldığı müşahidə olunmaqdadır. Məsələn, 1917-ci ilin mayında Tiflisdə keçirilən Fəhlə və Kəndli Deputatları Sovetləri Qurultayına bolşeviklərlə yanaşı, Hümmət təmsilçisi S.M. Əfəndiyev də göndərilmişdi (İbrahimov, 1957). Həmin ilin aprel ayının 20-22-də keçirilmiş əlavə seçkilər nəticəsində bolşeviklərin Bakı Sovetindəki nümayəndə sayının artması ilə yanaşı, 25 deputat arasında Hümmətçilərdən S.M. Əfəndiyev, M. Məmmədov və B. Bünyadov da yer almışdı (Ocherki Communisticheskoy Partii Azerbaydzhana, 1963, s. 221).

Bolşeviklərin Hümmətdən əsas gözləntisi, yüksəlişdə olan Azərbaycan milli-demokratik hərəkatına qarşı alternativ mövqe formalaşdırmaq idi. Hümmətçilər bu mərhələdə hələlik Müsəlman Milli Komitəsinin fəaliyyətində iştirak edir və ictimai proseslərdə fəallıq göstərirdilər. Komitəyə daxil olan N. Nərimanov və M. Əzizbəyov şəhər idarəetməsində təcrübəli və ictimai həyatda fəal şəxslər idilər. Milli-demokratik qüvvələrlə eyni cəbhədə dayanan müsəlman sosialistlər – Hümmət üzvləri – ictimai rəydə bu hərəkatın istiqamətini sosial-ictimai məsələlərin həllinə yönəltməyə çalışırdılar.

Təbliğat zamanı Hümmətçilərin əsas arqumenti sosializmin İslamla uzlaşa biləcəyi fikri idi. Qeyd etmək lazımdır ki, bu arqument yalnız siyasi ritorika deyil, həm də şəxsi inancın ifadəsi idi. Bununla belə, onlar marksist nəzəriyyədə dinə yönəlik mənfi münasibəti ya görməməzlikdən gəlir, ya da nəzərə almırdılar.

Azərbaycanlıları təmsil edən milli və sosialist qüvvələr arasında ilk ciddi ziddiyyət 1917-ci ilin 15-20 aprelində keçirilmiş Qafqaz Müsəlmanları Qurultayında meydana çıxdı. Hümmət təşkilatı qurultayda iştirak üçün N. Nərimanov, M. Əzizbəyov, R. Nağıyev və H. Sultanovu göndərmişdi. Qurultayda əsasən milli məsələlər müzakirə olunarkən, fəhlə və kəndli nümayəndələri müvafiq olaraq fəhlə və torpaq məsələlərinin önə çəkilməsini və komissiyalar

yaradılmasını təklif etdilər. Hər iki məsələ yalnız sosialist yanaşması ilə deyil, ümummilli kontekstdə təqdim edilməyə çalışıldı.

Qurultayda aqrar və fəhlə məsələləri üzrə komissiyalar yaradılsa da, bu məsələlərin Ümum-Rusiya Müəssislər Məclisinə qədər təxirə salınması qərara alındı (Kaspiy, 20 aprelya 1917). Qurultayın milli ordu yaradılması ilə bağlı qərarına Hümmətçilər etiraz əlaməti olaraq tədbiri tərk etdilər. Beləliklə, qurultay Hümmət təşkilatının siyasi mövqeyinə ictimai dəstəyin olmadığını da ortaya qoymuş oldu.

Bu vəziyyət Hümmət təşkilatının yerlərdə təşkilatlanma fəaliyyətinə diqqəti artırmasını zəruri edirdi. Müsavatçılar kimi, Hümmətçilər də yerli şöbələrini açmağa başlamışdılar, lakin müxtəlif səbəblərdən bu istiqamətdəki fəaliyyət zəif irəliləyirdi. Əgər müsavatçı təbliğatçılar ictimai-siyasi mühitin təzyiqləri səbəbindən ehtiyatlı davranmağa üstünlük verirdilərsə, Hümmətçilərin işi daha da çətin idi. M. Şahtaxtinskinin "Kaspiy" qəzetində yayımlanan məqaləsində qeyd olunduğu kimi, müsəlman ziyalılar müsəlman fəhlələr arasında təbliğat aparmaqdan çəkinirdilər. Onlar hesab edirdilər ki, bu cür fəaliyyət fəhlə təşkilatlarında (əsasən Bakı Soveti nəzərdə tutulur) müsəlman fəhlələrin digər həmkarlarından təcrid olunması təsəvvürünü yarada bilərdi (Kaspiy, 15 iyunya 1917, s. 6).

Müsəlman fəhlələr arasında sinfi mübarizə ideyası yenilik sayıldığından və milli burjuaziyanın düşmən obrazında təqdim edilməsi cəmiyyətin geniş kütləsində qəbul olunmadığından Hümmətçilər ciddi sosial-psixoloji baryerlərlə qarşılaşırdılar. Hümmətin görkəmli üzvlərindən biri olan M. İsrafilbəyovun xatirələrinə görə, bəzi fəhlələr bolşevikləri və onların siyasətini "rus siyasi xətti" kimi qiymətləndirərək rədd edirdilər və yalnız Hümmət adını qəbul edirdilər (ARPİİİSSA, fond 268, siyahı 23, iş 272, vərəq 10).

Nisbətən siyasi baxımdan yetkin müsəlman fəhlələrin Müsavat partiyasını dəstəklədiyi şəraitdə Hümmət siyasi ümidlərini daha yoxsul və passiv sosial təbəqələrə bağlamışdı. Lakin bu təbəqələr arasında aparılan təbliğat gözlənilən nəticəni vermir, zaman itkisinə səbəb olurdu. Hətta müsəlman fəhlələrinin kompakt şəkildə çalışdığı Tağıyevin toxuculuq fabrikində belə, Hümmət Müsavatın təsirini qıra bilməmişdi (ARPİİİSSA, fond 268, siyahı 23, iş 272, vərəq 13). İyul ayında mövcud vəziyyət və fəhlələr arasında geniş yayılan “müştərək müqavilə” məsələsinə dair müsəlman fəhlələrlə görüş keçirmək məqsədilə fabrikə gedən Hümmətçilər — Tağı Şahbazi və Haşım Əliyev — ciddi təzyiqlərlə üzləşmişdilər (Hümmət, 11 iyul 1917, s. 4). Müsəlman fəhlələr arasında təbliğatın zəifliyində təkcə bu təbəqənin siyasi yetkinliyi deyil, bolşevik təşkilatının bu istiqamətdəki fəaliyyətsizliyi də rol oynayırdı. Sonradan bəzi bolşevik xadimlər bu məsələni öz səhvləri kimi qiymətləndirərək, əgər Hümmətçilər irəli çəkilsəydi,

nəticələrin fərqli ola biləcəyini etiraf etmişdilər (ARPİİİSSA, fond 276, siyahı 2, iş 156, vərəq 32).

Hümmət təşkilatının məqsədləri aydın olsa da, taktikaları qeyri-müəyyən idi. Professor İradə Bağırovanın fikrincə, 1917-ci ilin iyun ayına qədər Hümmət təşkilatının konkret taktiki xətti yox idi və bu hal bolşeviklərin həmin dövrdə hələ də menşeviklərdən tam ayrılmaması ilə bağlı idi (Bagirova, 1998, s. 310). Lakin iyun ayında bolşeviklərin təşkilati olaraq menşeviklərdən ayrılması və öz strategiyalarını dəqiqləşdirməsi, onların müsəlman fəhlələr arasında fəaliyyətinin intensivləşməsinə və Hümmətin fəaliyyətinə də təsir göstərmişdi. Mart ayında yaradılmış Müvəqqəti Komitənin əvəzinə, iyunun 16-da 13 nəfərdən ibarət daimi Şəhər Komitəsi təşkil olunmuşdu. Hümmət bu mərhələdə RSDFP-nin proqramını tam şəkildə qəbul etmişdi (Bagirova, 1998). Təşkilat üzvlərinin bolşevik komitələrində irəli çəkilməsi də həmin dövrə təsadüf edir. 1917-ci ilin iyunun 25-də yaradılmış bolşeviklərin Bakı Komitəsinə N. Nərimanov, M. İsrafilbəyov, S. M. Əfəndiyev və bir qədər sonra M. Əzizbəyov daxil edilmişdilər (Ocherki Communisticheskoy Partii Azerbaydzhana, 1963). Həmin ilin avqust ayında Petroqradda keçirilən Ümumrusiya Bolşeviklər Partiyasının VI qurultayında Bakı proletariatı adından çıxış edən P. Caparidze ilə yanaşı, müsəlman fəhlələrin nümayəndəsi A. Yusifovun da iştirak etməsi bolşeviklərin bu yöndə mövqeyini nümayiş etdirirdi.

Azərbaycan tarixşünaslığında Bakı bolşeviklərinin Hümmət təşkilatına münasibəti ilə bağlı fərqli yanaşmalar mövcuddur. Belə ki, tarixçi Eldar İsmayılov öz tədqiqatında P. Caparidzenin müsəlmanları fəal şəkildə partiya işinə cəlb etməyə çalışmasına qarşılıq olaraq, S. Şaumyanın bu prosesə laqeyd münasibət sergilədiyinə diqqət çəkir. Müəllifin fikrincə, Şaumyanın Hümmət təşkilatına soyuq münasibəti onun nitqlərində təşkilat haqqında müsbət fikirlərin yer almaması ilə sübut olunur. Eyni zamanda, İsmayılov qeyd edir ki, VI qurultayda lider mövqeyində olan erməni bolşevikin deyil, müsəlman bolşevik A. Yusifovun iştirak etməsi Bakının milli xüsusiyyətlərini nəzərə alan Stalinin müdaxiləsi ilə izah olunur. Müəllifin fikrincə, belə bir şəraitdə erməni bolşevikin Bakı proletariatını təmsil etməsi Azərbaycanda və ümumilikdə Cənubi Qafqazda antibolşevik əhval-ruhiyyəyə yol aça bilərdi (İsmailov, 2012). Hər halda, əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi bir regionda hakimiyyətin əldə olunması məsələsinin bu əhali qrupunun siyasi seçimindən asılı olduğunu bütün siyasi qüvvələr, o cümlədən bolşeviklər də yaxşı anlayırdılar. Buna baxmayaraq, Hümmət təşkilatının gücləndirilməsi istiqamətində görülən işlərin həcmcə az olduğu müşahidə olunur. Bu vəziyyəti təşkilatın maliyyə təminatı da əks etdirir. Mart ayından fəaliyyətini bərpa edən təşkilatın əsas təbliğat vasitəsi kimi nəzərdə tutulan "Hümmət" qəzeti yalnız iyulun 3-də nəşr oluna bilmişdi. Qəzetin buraxılması üçün mətbəə avadanlığı və şriftlərin əldə olunması əhəmiyyətli maliyyə

vəsaiti tələb edirdi. RSDFP(b) Mərkəzi Komitəsi tərəfindən qəzetin nəşri üçün ayrılmış 5000 rublun yalnız 1000 rublu göndərilmiş, N. Nərimanovun təkrar müraciətindən sonra əlavə 500 rubl ayrılmışdı (ARPİİİSSA, fond 609, siyahı 1, iş 206, vərəq 1; Nərimanov, 1971, s. 127).

Müqayisə üçün qeyd etmək olar ki, azərbaycanlı fəhlələrin geniş dəstəyini qazanmış Müsavat Partiyası ideoloji üstünlüyə əlavə olaraq siyasi təbliğat və təşviqat üçün vəsait toplamaqda da daha az çətinliklərlə üzləşirdi. Bu, əsasən, müsəlman fəhlələrin ziyalı və burjuaziya təbəqəsi ilə birlikdə ümummilli maraqlar ətrafında birləşməsi ilə izah olunur. Digər tərəfdən, Hümmət təbliğatçıları Müsavatçılardan fərqli olaraq tez-tez getdikləri yerlərdə fiziki təzyiqlərə də məruz qalırdılar (Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı, 2010, s. 122). Bütün çətinliklərə baxmayaraq, 1917-ci ilin avqust ayına qədər Hümmətin bir sıra qəzalarda, xüsusilə Bakı quberniyasına daxil olan Lənkəran, Quba, Şamaxı və Salyan bölgələrində yerli təşkilat özəkləri yaradılmışdı. Hümmətin Azərbaycan ərazisində nüfuz əldə etməsi, daha çox kəndli sinfinin dəstəyi ilə mümkün ola bilərdi. Lakin Bakı təşkilatı 1917-ci ildə bu məqsədə nail ola bilməmişdi.

Əksinə, menşevik xəttini təqib edən Tiflis Hümmətçilərinin Azərbaycanın qərb bölgələrində apardığı kəndli yönümlü sosialist təbliğatı müəyyən nəticələr vermişdi. Ümumrusiya Müəssislər Məclisinə seçkilər zamanı həmin bölgələrin hesabına Müsəlman Sosialist Bloku 159,770 səs toplayaraq, Müsavat Partiyasından geri qalsa da, Rusiyada fəaliyyət göstərən "Müsəlmanlıq (İttihad)" partiyasını geridə qoymuşdu (Zakavkazskiy Seym, 1919, s. 5). Lakin qəzalarda müsavatçılarla müqayisədə Hümmət daha zəif nəticələr göstərmişdi. Milli komitələrin təşkili üçün bölgələrə ezam olunan müsavatçılar orada eyni zamanda öz partiyalarının yerli şöbələrini də təsis edə bilirdilər. Hümmətçilər isə, ictimai-siyasi vəziyyəti doğru qiymətləndirməkdə və əhalinin siyasi ehtiyaclarına uyğun davranmaqda çətinlik çəkirdilər. Onlar öz uğursuzluqlarını Müsavatın əhali tərəfindən dəstəklənməsi ilə deyil, bu partiyanın Bakı Müsəlman Milli Şurasından təbliğat üçün maddi dəstək ala bilməsi ilə izah etməyə çalışırdılar (Hümmət, 25 iyul 1918, s. 3). Bolşeviklərin perspektiv planlarında Hümmət təşkilatını təkcə yerli deyil, bütövlükdə Rusiya müsəlmanları, xüsusilə Qafqaz və ona yaxın regionlarda müsəlman əhali arasında təbliğat vasitəsi kimi istifadə etmək niyyətləri vardı. Bu məqsəd təşkilatın yerli özəklərinin sayının artırılmasına şərait yaratmışdı. 1917-ci ilin yayında Zakaspi bölgəsindən gələn müraciət əsasında həmin bölgəyə göndərilən hümmətçi Əlicabbar İsmayılov Krasnovodsk, Aşqabad və Daşkənd şəhərlərində siyasi fəaliyyət göstərmişdi (Bolsheviki v borbe za pobedu sosialisticheskoy revolyutsii v Azerbaydzhane, 1957, s. 79). Bu bölgədə Hümmətin Mərv qrupu da formalaşdırılmış, burada Z. Zamanov və M. İşməmmədov

kimi yerli fəallar təşkilatın fəaliyyətinə qatılmışdılar (İstoriya communisticheskikh organizatsii Sredney Azii, 1967, s. 166–167). Eyni dövrdə, iyulun sonunda M. Əzizbəyov Tiflisdəki hümmətçi bolşeviklərlə əlaqə yaratmaq üçün göndərilmişdi (Azizbekov, 1976). Beləliklə, yay aylarının sonuna yaxın "Hümmət" artıq yerli təşkilat özəklərinə malik bir siyasi qurum kimi fəaliyyət göstərməkdə idi. Fəaliyyətini bərpa etdiyi andan etibarən Hümmət təşkilatının gündəlik işi bolşeviklərin Bakı Komitəsinin proqram və istiqamətləri ilə uzlaşdırılmış şəkildə həyata keçirilirdi. Təşkilatın əsas liderləri — N. Nərimanov, M. İsrafilbəyov, M. Əzizbəyov və digərləri — eyni zamanda Bakı bolşevik komitəsinin üzvləri idi. Onların siyasi fəaliyyəti əsasən təbliğat və təşviqat xarakteri daşıyırdı və bu fəaliyyət ictimai-siyasi həyatda mühüm rol oynayan məsələlərlə — müştərək müqavilə, mədən rayonlarının şəhərə birləşdirilməsi, şəhər dumasına seçkilər və sair — bağlı mühazirələrlə müşayiət olunurdu.

Maraqlı bir nümunə 1917-ci il avqustun 12-də Bibiheybət rayonunda baş vermişdi. Burada M. İsrafilbəyovun çıxışından sonra təqribən 100 nəfər müsəlman fəhlə Hümmət təşkilatına üzv olmaq istədiklərini bildirmişdi (Bolsheviki v borbe za pobedu sosialisticheskoy revolyutsii v Azerbaydzhane, 1957, s. 86). Bununla belə, yığıncaqlarda müşahidə olunan entuziazmin qısa müddət ərzində sönməsi təşkilatın davamlı üzv artımı əldə etməsinə mane olurdu. Məsələn, 1917-ci ilin payızında təşkilatın 200 nəfərdən çox üzvü olduğu bildirilmişdi (Ocherki Communisticheskoy Partii Azerbaydzhana, 1963), lakin bu rəqəm sənədlərlə təsdiqlənmir.

Əldə edilən qısamüddətli dəstəyin dayanıqlı üzvlüyə çevrilməməsinin bir səbəbi də müsavatçıların eyni mövzularda paralel mühazirələr təşkil etməsi idi. Fəhlələr eyni məsələləri həm Hümmət, həm də Müsavat təmsilçilərindən dinlədikdən sonra siyasi seçimlərini dəyişə bilirdilər. Bu vəziyyət təşkilatın real təsir gücünün və davamlı kütləvi bazasının məhdud olduğunu göstərirdi.

**Hümmət və Milli Komitə Arasındakı Münasibətlər**

Sinfi mübarizə ideologiyasını əsas tutan Hümmət təşkilatının, milli həmrəyliyi önə çəkən Azərbaycan milli-demokratik qüvvələri ilə ziddiyyətə düşməsi qaçılmaz idi. Bu səbəbdən Hümmətin əsas siyasi hədəfi, Müsavatın dominant qüvvə olduğu Milli Şura və onun icra orqanı olan Milli Komitəyə qarşı yönəlmişdi. Hümmət təşkilatı öz təbliğatında Milli Şuranın fəaliyyətini qeyri-effektiv hesab edir və bu mövqeyini öz nəşri olan *Hümmət* qəzetində dəfələrlə ifadə edirdi. Onlar Milli Şuranın siyasi proseslərə müdaxiləsinin əleyhinə çıxaraq (Hümmət, 12 sentyabr 1917, s. 3), bu qurumun fəaliyyətini yalnız sosial və iqtisadi məsələlərin həlli ilə məhdudlaşdırmaq istəyirdilər. Hümmətçilər inqilabın milli tərəqqiyə yol açdığını iddia edir, müsəlmanları Milli Şuraya deyil, Bakı Sovetinə qoşulmağa çağırırdılar. Hətta onlar dil baryeri

problemi yaranacağı təqdirdə ayrıca müsəlman sovetlərinin yaradılmasını da mümkün sayırdılar (Bolsheviki v borbe za pobedu sotsialisticheskoy revolyutsii v Azerbaydzhane, 1957, s. 126).

1917-ci ilin yayında Hümmətin fəaliyyəti əsasən Milli Komitənin yenidən formalaşdırılmasına yönəlmişdi. 21 iyun (4 iyul) tarixli iclasda bu məsələ müzakirə olunmuşdu. Həmin komitə mart ayında müvəqqəti orqan kimi yaradılmış və onun sədri M.Hacinski bir müddət sonra fəaliyyətsizlikdən şikayət edərək komitənin tərkibinin dəyişdirilməsini təklif etmişdi (Hümmət, 18 iyul 1917, s. 2–3).

Milli qüvvələri birləşdirmək məqsədilə Hümmət təşkilatına da yeni komitəyə qatılmaq təklifi edilmişdi. Hümmət isə, fəhlə və kəndliləri təmsil edən demokratik təşkilat olaraq, daha çox yer almaq iddiasında idi. Buna əsaslanaraq komitə tərəfindən yaradılan 10 nəfərlik seçki komissiyasında yerlərin yarısının Hümmətə ayrılmasını tələb etmişdi (Bolsheviki v borbe..., 1957, s. 41). Lakin bu tələb rədd edilmiş və komissiya tərkibi 3 nəfər Hümmət, 3 nəfər Müsavat və 4 nəfər Milli Komitədən olmaqla müəyyənləşdirilmişdi (Hümmət, 18 iyul 1917, s. 2–3). Bu qərardan sonra Hümmət komitəyə daxil olmaqdan imtina etmişdi (Bolsheviki v borbe za pobedu..., 1957, s. 59).

Yeni tərkibli Milli Komitəyə Ə.M.Topçubaşov sədr seçilmiş və onun rəhbərliyi ilə komitəyə Müsavat və Rusiyada Müsəlmanlıq partiyaları ilə yanaşı, müsəlman eserlərin və "Birlik" təşkilatının təmsilçiləri daxil olmuşdu. Bu addım Milli Şuranın yenidən formalaşdırılmasına səbəb olmuş və nəticədə hümmətçilərlə milli qüvvələr arasında münasibətlər daha da soyumuşdu.

Yaranmış vəziyyətdə Hümmət təşkilatı xalqı cəlb etmək üçün alternativ bir siyasi xətt nümayiş etdirməli idi. Lakin təşkilatın müstəqil siyasi qurum olmaması bu prosesi çətinləşdirirdi. Müsəlman fəhlələrin yetkin təbəqəsi üçün əsas cəlbedici faktor, onların inqilabi hakimiyyət orqanlarında geniş təmsil olunması və bolşeviklərin milli məsələ ilə bağlı konkret addımlar atması olmalı idi. Amma bolşeviklərin VII Ümumrusiya konfransından (aprel 1917) sentyabrın sonuna qədər Bakı Komitəsində milli məsələnin bir dəfə belə müzakirəyə çıxarılmaması, bu sahədə passivlikdən xəbər verirdi (İbrahimova, 2010, s. 192).

Bununla yanaşı, bolşeviklərin bölgədə fəaliyyət göstərən digər müsəlman təşkilatları ilə koordinasiyalı fəaliyyət göstərmək niyyəti müşahidə olunurdu. Belə ki, Hümmətin fəaliyyəti "Birlik" və iranlı fəhlələrin "Ədalət" təşkilatları ilə əlaqələndirilmişdi. Sentyabr ayında "Birlik" təşkilatı Hümmətə vahid təşkilatda birləşmə təklifi ilə müraciət etmişdi (Bolsheviki v borbe...,

1957). Rəsmi birləşmə sənədi əldə olunmasa da, dövri mətbuatdan görünür ki, hər iki təşkilat faktiki olaraq birlikdə fəaliyyət göstərməkdə idi.

1917-ci ilin oktyabr ayının əvvəlində Azərbaycanın milli hərəkatında sosialistlərlə milli-demokrat qüvvələr arasında mövcud olan fərqlər kəskin şəkildə üzə çıxdı. Bu proses xüsusilə 4 oktyabrda Gəncədə Ümum-Rusiya Müəssislər Məclisinə namizədlərin siyahısının tərtibi məqsədilə keçirilən müşavirədən sonra qabarıq şəkildə hiss olunmağa başladı. Müsavatçılar görüşdə siyasi tərəfləri ortaq mövqeyə gəlməyə dəvət etsələr də, razılaşma mümkün olmamışdı. Bu müşavirə həm də Azərbaycan sosialistləri arasında qəti parçalanmaya səbəb olmuşdu. Belə ki, Tiflis Hümmət təşkilatı Bakı Hümmət təşkilatına ortaq namizəd siyahısı ilə çıxış etməyi təklif etsə də, bu təklif rədd edilmişdi (Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, fond 255, siyahı 7, iş 14, vərəq 25).

Menşevik Hümmət üzvü Ə.Şərif Gəncə müşavirəsindən sonra Hümmət daxilində bolşevik və menşevik qanadlarının yollarının ayrıldığını təsdiqləyir (Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, fond 255, siyahı 6, iş 157, vərəq 3). Həmin dövrdə, oktyabr ayında Tiflis Bolşevik Komitəsi nəzdində ayrıca Hümmət qrupu yaradılmışdı (Kavkazskiy rabochiy, 21 oktyabrya 1917). Bu qrupun üzvləri arasında Heydərəli Tağızadə, Əşrəf Yüzbaşov, Ə.Tağızadə, Hüseynqulu Şabanov, Yusif Axundov, Teymur Novruzzadə, Nağı Bağırov və Məmmədhüseyn Məmmədov kimi şəxslər var idi.

Bu proseslərin Bakı Hümmət təşkilatında da tərəddüdlərə səbəb olduğunu güman etmək olar. Oktyabrın 18-də təşkilatın 80 nəfərlik ümumi yığıncağında bir qrup üzv Hümmətin Bakı Bolşevik Komitəsinin təsirindən çıxmasını tələb etmişdi (Hümmət, 24 oktyabr 1917, s. 2). Bu məsələ ciddi fikir ayrılığına (mənbələrdə "münaqişə" olaraq qeyd edilir) səbəb olmuşdu. Həmid Sultanov öz xatirələrində bu təşəbbüsün Tiflisdən gəlmiş menşevik Hümmətçi Ə.Şeyxülislamov tərəfindən irəli sürüldüyünü bildirir (Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı, 2010). Qeyd etmək lazımdır ki, bolşevik meylli Hümmət üzvlərindən fərqli olaraq, menşevik yönümlü Hümmətçilərin Milli Komitələrlə ziddiyyətləri yox idi. Onlar yerlərdə bu komitələrin işində iştirak edir və mövcud problemləri yaxından müşahidə edə bilirdilər.

Bu mənzərəyə əsasən, Hümmət daxilində milli məsələyə münasibətdə mövcud olan fikir ayrılıqları təşkilatdaxili parçalanmanı dərinləşdirmişdi. Sonralar bu fərqlilik daha qabarıq şəkildə ortaya çıxacaqdı. Məhz bu səbəbdən, bəzi Hümmət üzvlərinin və müsəlman fəhlələrinin Sovet daxilində özlərinin azlıqda olduqlarına dair narahatlıqları artırdı. Bu narahatlıq bəzi fəalların çıxışlarında xüsusi ilə vurğulanmış, Sovet seçkilərində müsəlmanlar üçün ayrıca namizəd siyahısı tərtib olunması təklifi irəli sürülmüşdü (Znamya Truda, 19 oktyabrya 1917).

Böyük ehtimalla, belə təşəbbüslərə reaksiya olaraq, bolşeviklər oktyabr ayında formalaşdırılmış Bakı Sovetinin Müvəqqəti İcraiyyə Komitəsinə Hümmət və müsəlman eserlərindən də nümayəndələrin daxil edilməsinə razılıq vermişdilər.

**Hümmət Təşkilatının Bakıda Keçirilən Seçkilərdə İştirakı**

1917-ci ilin oktyabr ayında Bakıda iki əsas hakimiyyət institutuna – Bakı Soveti və Şəhər Dumasına – seçkilər keçirilmişdi. Hümmət təşkilatı Bakı Soveti seçkilərində bolşeviklərlə vahid namizəd siyahısında iştirak etmişdi. Seçkiyə təqdim edilən 82 namizəd arasında 21 nəfərin müsəlman olduğu bildirilmiş, lakin onlardan yalnız bir neçəsi Sovetə seçilə bilmişdi (Bakinskiy pabochiy, 18 oktyabrya 1917, s. 3). Qeyd etmək lazımdır ki, siyahıda yer alan 21 nəfərin hamısının Hümmət təşkilatının üzvü olub-olmaması dəqiq müəyyən edilməmişdir. Bu seçkilər Hümmət təşkilatının müsəlman fəhlələr arasında zəif ictimai dayaqlara malik olduğunu nümayiş etdirmişdi. Müsəlman fəhlələrin əksəriyyəti səslərini Müsavat Partiyasına vermişdilər.

Hümmətçilər Sovet seçkiləri ilə müqayisədə, Şəhər Dumasına keçirilən seçkilərə daha çox önəm vermişdilər. Bu, ilk növbədə Duma seçkilərində əhalinin bütün təbəqələrinin iştirak etməsi və nəticədə burjuaziyanın təmsilçiliyinin üstünlük təşkil edəcəyi ehtimalı ilə bağlı idi. Sosialistlər üçün bu vəziyyət arzuolunmaz sayılırdı. Hələ inqilabdan əvvəl, 1917-ci ilin əvvəllərində M.Əzizbəyov öz çıxışlarında Duma üzvlərinin ən azı yarısının müsəlmanlardan ibarət olmasının zəruriliyini bildirmişdi (Azizbekov, 1976, s. 40).

Bolşeviklərlə vahid siyahıda yer alan Hümmət üzvləri, eyni zamanda, Milli Komitənin seçki siyahısında da təmsil olunmağa ümid edirdilər. Bu səbəbdən 4 oktyabrda Milli Şuranın iclasında Duma seçkilərində iştirak üçün hazırlanmış müsəlman siyasi qüvvələrinin namizəd siyahısı müzakirə edilərkən, N. Nərimanov fəhlə və kəndli nümayəndələrinin orada təmsil olunmamasına kəskin etiraz etmiş və bu məsələ iclasda qalmaqala səbəb olmuşdu (Hümmət, 10 oktyabr 1917, s. 2). Nəticədə, Hümmətçilər bolşeviklərlə birgə vahid siyahı ilə seçkilərdə iştirak etdilər. Bu siyahı üzrə 82 bolşevik namizədin 18-i azərbaycanlı idi. Onlardan N. Nərimanov, M. Əzizbəyov, M. İsrafilbəyov və Ə. Qasımov Şəhər Dumasına seçilə bilmişdilər.

Əslində, həmin dövrdə Hümmət təşkilatının müsəlman əhalisi arasında yetərincə tanınan və rəğbət doğuran namizədləri məhdud idi. Hümmət rəhbərliyi bu vəziyyəti dəyişmək üçün qadınların siyasi iştirakını da təşviq etmişdi. Duma seçkilərindən sonra Nəriman Nərimanov minə yaxın müsəlman qadınının bolşevik namizədlərə səs verdiyini və bunun Hümmətin təbliğatı nəticəsində baş verdiyini bildirmişdi (Narimanov, 1989). Bununla belə, bu seçkilər də Hümmət üçün uğurlu sayılmırdı. Noyabr ayında keçirilən Ümum-Rusiya Müəssislər Məclisinə seçkilər zamanı bolşeviklərin təqdim etdiyi seçki siyahısında 36 namizəd yer alsa da, onların

yalnız 4-ü Hümmət təşkilatının üzvləri idi: N. Nərimanov, M. Əzizbəyov, M. İsrafilbəyov və S. Yaqubov.

**Oktyabr Çevrilişindən Sonra Hümmət Təşkilatının Fəaliyyəti**

1917-ci ilin oktyabr çevrilişindən sonra Hümmət təşkilatının fəaliyyətində əhəmiyyətli canlanma müşahidə olunmuşdu. Rusiya Xalq Komissarları Sovetinin Şərqin müsəlman xalqlarına ünvanladığı müraciət, Hümmətçilər tərəfindən bolşevik hakimiyyətinin açıq dəstəyi və birmənalı vədi kimi qarşılanmışdı. Qısa müddət sonra, 1918-ci ilin yanvarında Nəriman Nərimanov bu müraciətə münasibət bildirərək yazırdı:

*"İnqilab bizə tam hüquqlar verərək elan etdi: siz müsəlmanlar öz işinizi özünüz həll edin. Siz bütün məsələlərdə azadsınız, öz qanunlarınızı verin, öz məktəbinizi açın, öz dininizi, dilinizi yayın, öz milli qoşununuzu yaradın"* (Narimanov, 1989, s. 59).

Bu bəyanat əslində milli-ərazi muxtariyyətinin həyata keçirilməsi üçün zəruri olan siyasi zəmin kimi qiymətləndirilə bilərdi. Lakin Rusiyadan tam ayrılmağı dəstəkləməyən N. Nərimanov, bolşeviklərin ritorikasına uyğun olaraq, müsəlman zadəgan və bəy sinfini Rusiyadan ayrılmaq istəməkdə və inqilaba qarşı çıxmaqda günahlandırırdı.

1917-ci ilin sonlarında Cənubi Qafqazda milli qüvvələrin fəallaşması və milli muxtariyyət tələblərinin artması, müsəlman sosialistlərinin də müvafiq cavab tədbirləri görməsinə səbəb olmuşdu. Bu məqsədlə, 17 dekabr 1917-ci ildə Bakıda Hümmət təşkilatının təşəbbüsü ilə Qafqaz müsəlman sosialistlərinin beş gün davam edən qurultayı keçirilmişdi. Ə. Şərifin xatirələrinə əsasən, bu qurultay Tiflis hümmətçilərinin Bakı təşkilatına müraciətindən sonra çağırılmışdı (Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, fond 255, siyahı 7, iş 14, vərəq 25).

Qurultayın məqsədi regionun müsəlman sosialistlərini milli məsələlərdə ortaq mövqedə birləşdirmək idi. Gündəliyə daxil edilən məsələlər sırasında milli məsələ və mədəni-milli muxtariyyət, hökumət strukturları, millətlərarası münasibətlər və müsəlman demokratiyasının Cənubi Qafqazda gələcək fəaliyyət istiqamətləri yer almışdı. Qurultayda Cənubi Qafqaz müsəlman sosialistlərinin ittifaqının yaradılması qərara alınmışdı (Hümmət, 19 dekabr 1917, s. 2–3; Hümmət, 1 yanvar 1918, s. 3).

Qurultayda Müsavat Partiyasının nümayəndələri də iştirak etmiş, bu mərhələdə hələ sosialistlərlə əməkdaşlığa ümid edən M. Ə. Rəsulzadə, çıxışında bir çox məsələlərdə ortaq işbirliyinə açıq olduqlarını ifadə etmişdi. Lakin 1918-ci ilin yanvar–mart aylarında baş verən hadisələr bu iki siyasi qüvvə arasında əməkdaşlıq ehtimalının praktiki baxımdan qeyri-mümkünlüyünü göstərmişdi.

Bakıda bolşeviklərin hakimiyyət ambisiyalarını artırmaları və təbliğat işlərini gücləndirmələri Hümmət təşkilatının fəaliyyətinə də təsir etmişdi. Yanvar ayından etibarən Hümmətin fəaliyyəti daha da intensivləşmiş, təşkilat rəhbərliyi mühazirələrin sayını artırmaqla ictimaiyyətlə birbaşa təmas qurmağa çalışmışdı. Bu mühazirələr bəzən bir neçə yüz dinləyicini cəlb edirdi və pullu keçirilirdi. Beləliklə, həm təbliğat məqsədinə, həm də təşkilatın maliyyə ehtiyaclarının ödənilməsinə xidmət edirdi. 11 fevral 1918-ci ildə Hümmət təşkilatı fəhlələrin xahişi ilə Tağıyevin toxuculuq fabrikinə təbliğatçılar göndərmişdi. Bu hal, iyun ayında yaşanan gərginlikdən fərqli olaraq, artıq təşkilata qarşı ictimai münasibətin dəyişdiyini göstərirdi (Hümmət, 13 fevral 1918, s. 3). Təşkilat nəzdində təbliğatçı kadrlar hazırlamaq məqsədilə siyasi məktəb də təsis edilmişdi. Bakı Sovetinin Qeyri-Şəhər Komissiyası tərəfindən kəndlərə göndərilən təbliğatçılar arasında Hümmət üzvləri də yer alırdı (Hümmət, 22 fevral 1918, s. 2).

Lakin təşkilatın mərkəzi və rayon komitələri arasında əlaqələrin zəif olması Hümmətin geniş fəaliyyət göstərməsində əngəllər yaradırdı. Bu problemi həll etmək məqsədilə 7 yanvar 1918-ci ildə təşkilatın yeni Ümumşəhər Komitəsi seçilmişdi. Yeni rəhbərlik M. İsrafilbəyovun sədrliyi ilə fəaliyyətə başlamış, B. Şahtaxtinski və H. Sultanov sədr müavinləri seçilmişdilər (Bolsheviki v borbe, 1957, s. 244; Ocherki, 1963).

**Hümmətçilər Qırmızı Qvardiya Sıralarında**

1918-ci ilin əvvəllərində Bakı Sovetinin təşəbbüsü ilə yaradılan Qırmızı Qvardiyanın tərkibinə Hümmət təşkilatının üzvləri də daxil olmuşdu. Qvardiyanın yaradılması, fəhlələrin silahlandırılması və Bakı şəhərində asayişin qorunması məqsədi daşıyırdı. Lakin onun yalnız rus və erməni fəhlələrindən təşkil olunması cəmiyyətdə narahatlıq doğururdu. Bu səbəbdən, bolşeviklər Azərbaycanlılar və digər yerli millətlərin nümayəndələrinin də silahlı dəstələrə cəlb olunmasına çalışmışdılar (Ratgauzer, 1927).

Bakı kimi çoxmillətli və sosial baxımdan gərgin bir şəhərdə, azərbaycanlı fəhlələrin də özlərini qoruma ehtiyacı Qırmızı Qvardiyada iştiraklarını zəruri etmişdi. Hümmət təşkilatı, bu ehtiyacı nəzərə alaraq, daha fəal hərəkət etməyə başlamışdı. 1918-ci ilin əvvəlində Bakı Bolşevik Komitəsi və Hümmət təşkilatının qərarı ilə, azərbaycanlılardan ibarət xüsusi qvardiya dəstəsinin yaradılması üçün komissiya təşkil edilmişdi. Bu komissiyanın tərkibinə H. Sultanov, M. Əzizbəyov, D. Bünyadzadə, B. Əliyev və M. Hüseynov daxil idi. Təşkilatın faktiki rəhbəri isə H. Sultanov idi (Bolsheviki v borbe..., 1957, s. 277).

H. Sultanov, eyni zamanda Qırmızı Qvardiyanın mərkəzi qərargahında və şəhərdə asayişə nəzarət edən Hərbi İnqilab Komitəsində də təmsil olunurdu. Lakin azərbaycanlıların silahlanması məsələsi xüsusilə Bakı Sovetində güclü təsirə malik olan erməni siyasi dairələri,

xüsusilə daşnaklar tərəfindən mənfi qarşılanmışdı. Hümmətçi H. Sultanovun Qırmızı Qvardiyanın qərargahına sədr müavini təyin olunması təklifi daşnakları ciddi narahat etmiş və bu vəzifəyə onların nümayəndəsi Vartanov irəli sürülmüşdü. Səsvermə nəticəsində Sultanovun üstünlük qazanması daşnakların etirazına səbəb olmuşdu. Bu fakt, həmin dövrdəki erməni bolşevik mətbuatında da təsdiq olunmuşdur (Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı, 2010, s. 378).

Daşnakların və bəzi erməni bolşeviklərinin Hümmət üzvlərinə qarşı skeptik və etimadsız münasibətləri diqqətçəkicidir. Onlar "tatardan, türkdən kommunist olmaz" kimi ifadələrlə müsəlmanların bolşevik ideologiyasına bağlılığını şübhə altına alırdılar (ARPİİİSSA, fond 268, siyahı 23, iş 36, vərəq 1–5). 1918-ci ilin oktyabrında erməni bolşeviki A. Karinyan Hümməti "xırda burjua" partiyası adlandırdıqda, N. Nərimanov buna sərt etiraz etmişdi (Narimanov, 1989).

Hümmətin nəzdində təşkil olunmuş Qırmızı Qvardiyanın dəqiq say tərkibi ilə bağlı etibarlı mənbə yoxdur. Lakin M. İsrafilbəyov öz xatirələrində qvardiyanın təxminən 200–300 nəfərdən ibarət olduğunu qeyd edir (ARPİİİSSA, fond 268, siyahı 23, iş 272, vərəq 19). Bundan əlavə, Maştağa kəndində də 150 nəfərlik bir qvardiya dəstəsinin yaradıldığı məlumdur (Hümmət, 15 may 1918, s. 2). Ümumilikdə isə, Hümmət təşkilatının hərbi baxımdan təşkilatlanması zəif idi. Bu səbəbdən 1918-ci ilin mart hadisələri zamanı onların hadisələrin gedişatına əhəmiyyətli təsir göstərdiyini demək mümkün deyil.

**Hümmətin İctimai-Siyasi Problemlərin Həllində İştirakı**

1917-ci ilin son rübündən etibarən Cənubi Qafqazda milli ziddiyyətlər dərinləşmiş və bu, xüsusilə Bakıda baş verən hadisələrə ciddi təsir göstərmişdi. 1918-ci ilin yanvar–mart aylarında Azərbaycanda ictimai-siyasi gərginlik artır və bu prosesdə Bakı Sovetinin bolşevik rəhbərliyinin ritorikasında antimüsəlman tonlar nəzərəçarpacaq dərəcədə güclənirdi. Şamxor hadisələrindən sonra bu mövqe daha açıq şəkildə ifadə olunurdu. Hadisələrin birtərəfli qiymətləndirilməsi, o cümlədən Azərbaycan qəzalarında baş verən iğtişaşlara yalnız bir tərəfin məsuliyyət daşıdığına dair yanaşma, azərbaycanlıların təmsil olunduğu siyasi partiya və təşkilatların narahatlığına səbəb olmuşdu.

Bu dövrdə vəziyyətin gərginliyini dərk edən və qarşılıqlı etimadsızlığın yayılmasının qarşısını almağa çalışan qüvvələr arasında Hümmət təşkilatı da yer alırdı. Təşkilat, xüsusən 1918-ci ilin ilk aylarında antimüsəlman şayiələrdən doğan təhlükəni hiss edir və təxribatçı fəaliyyətlərin qarşısının alınması məqsədilə bir sıra addımlar atırdı.

Hümmət bu mərhələdə Müsəlman Milli Komitəsinin işini görən və "Partiyalararası Komissiya" (rusca "İnterpartiyniy komitet") kimi tanınan qurumda da təmsil olunurdu. 25

yanvar 1918-ci il tarixində (köhnə təqvimlə 12 yanvar) yaradılmış bu komissiyanın məqsədi Milli Şuraya yeni seçkilərin keçirilməsini təşkil etmək idi. Komissiyanın tərkibinə həm milli, həm də sosialist yönümlü təşkilatlar — o cümlədən müsəlman eserləri və Hümmət nümayəndələri — daxil edilmişdi. Komissiyaya ittihadçı M.Y. Mehdiyev rəhbərlik edir, Hümməti isə S.M. Əfəndiyev təmsil edirdi. Mart hadisələrinə qədər fəaliyyət göstərmiş bu komissiya faktiki olaraq müxtəlif siyasi cərəyanların koordinasiya mərkəzinə çevrilmişdi.

Bu dövrdə ictimai-siyasi problemlərin həllinə Hümmətin milli qüvvələrlə əməkdaşlıq yolu ilə yanaşması diqqətçəkən məqamdır. Mühüm məsələlərdən biri, dəmir yollarının mühafizəsi və hərəkətin bərpası idi. 1 fevralda (köhnə təqvimlə 19 yanvar) müxtəlif müsəlman partiyalarının, Müsəlman Milli Komitəsinin və Dəmir Yol Komitəsinin nümayəndələri Gəncəyə ezam olunmuşdu. Bu nümayəndə heyətinə həm Müsavat, həm Hümmət nümayəndələri daxil idi (Baku, 20 yanvarya 1918, s. 3).

Daha sonra, 8 mart (23 fevral) tarixində isə Partiyalararası Komissiya tərəfindən 1 Hümmətçi, 2 Müsavatçı, 3 İttihadçı və 1 müsəlman eserindən ibarət daha bir nümayəndə heyəti Gəncəyə göndərilmişdi. Hümməti bu heyətdə Ə. Məmmədzadə təmsil edirdi. Heyət dəmir yolu boyunca müxtəlif görüşlər keçirmiş, Gəncədə isə əhali ilə toplantı təşkil olunması qərara alınmışdı. Hümmət nümayəndələri bu toplantının ermənilərin iştirakı ilə keçirilməsini təklif etsə də, mövcud vəziyyətdə bu təklif məqsədəuyğun sayılmamışdı (Hümmət, 6 mart 1918, s. 2–3).

Əhməd Əhmədov qeyd edirdi ki, 1918-ci ilin əvvəlində "Azərbaycan gerçəkliyinin bəzi xüsusiyyətləri" səbəbindən Hümmət təşkilatı türk cəmiyyətinin liberal-burjua partiyaları ilə razılaşma yolu ilə fəaliyyət göstərməyə məcbur olmuşdu (Akhmedov, 2006, s. 44). S.M. Əfəndiyev də öz xatirələrində partiyanın bəzən müstəqil çıxış etməli olduğu məsələlərin vacibliyinə toxunurdu. Bu vəziyyəti sovet tarixçisi Z. İbrahimov isə Hümmət sıralarına "millətçi ruhlu ünsürlərin" sızması ilə izah edirdi və onların təşkilatı bolşeviklərdən ayırmaq niyyətində olduğunu qeyd edirdi (İbrahimov, 1957, s. 109).

Hümmət nümayəndələrinin iştirakı həm də Lənkəran hadisələri zamanı özünü göstərmişdi. 1918-ci ilin yanvarında İrandan gələn, silah-sursatla dolu “Milyutin” gəmisi Lənkəran limanında tərksilah olunmuşdu. Bu addım bölgədə baş qaldıran anarxiyanın qarşısını almağa yönəlmişdi (Açıq söz, 23 yanvar 1918; Açıq söz, 28 yanvar 1918, s. 3). Eyni dövrdə Hümmət təşkilatı bölgədə təbliğat fəaliyyətini gücləndirmiş, 3 fevralda (21 yanvar) baş tutan mərkəzi komitə iclasında doktor Talışınskinin məruzəsi əsasında Astara bölgəsindəki vəziyyət müzakirə olunmuşdu. Hümmət, Bakı Soveti İcraiyyə Komitəsinə hərbi dəstə göndərmək

əvəzinə ilkin mərhələdə təbliğatçıların göndərilməsini təklif etmişdi (Hümmət, 23 yanvar 1918, s. 3). Qəzetin 13 fevral sayında isə "Qafqazda barıt hazırdır" ifadəsi ilə təxribat riskinə diqqət çəkilirdi (Hümmət, 13 fevral 1918, s. 1).

Oxşar vəziyyət Şamaxı qəzasında da müşahidə olunurdu. 25 mart (12 mart) tarixində Partiyalararası Komissiyanın üzvü S.M. Əfəndiyev, Şamaxı Müsəlman Şurasını 1200 nəfərlik bir dəstənin bölgəyə yollanacağı ilə bağlı məlumatlandırmışdı (Rustamova-Tohidi, 2013, s. 284). Gərginliyi nəzərə alaraq, ertəsi gün — 26 mart (13 mart) tarixində Müsavat və Komissiyanın digər üzvləri Şamaxıya gəlmişdilər.

1918-ci ilin əvvəllərində Hümmət təşkilatının fəaliyyət istiqamətlərindən biri də Bakıda fəaliyyət göstərən İran siyasi təşkilatları ilə əlaqələrin qurulması olmuşdur. Bolşeviklər, xüsusilə İranın Cənubi Azərbaycan bölgəsindən Bakıya gəlmiş fəhlələr arasında ideoloji təsir imkanlarını genişləndirmək məqsədilə bu münasibətləri önəmli hesab edir və Hümmətin vasitəçiliyindən istifadə etməyə çalışırdılar.

Qeyd olunmalıdır ki, Hümmət təşkilatı İran inqilabı dövründə bu istiqamətdə müəyyən təcrübə qazanmış və İranlı fəhlələrin sosial-demokrat yönümlü siyasi təşkilatı olan Ədalət ilə əlaqələr qurmuşdu. Lakin 1918-ci ilin əvvəllərində Bakıda fəaliyyət göstərən müxtəlif İran təşkilatları arasında daxili ixtilaflar və siyasi fikir ayrılıqları müşahidə olunurdu.

Bu problemi həll etmək məqsədilə 1918-ci il martın 15-də (köhnə təqvimlə 2 mart) Nəriman Nərimanov Bakıda fəaliyyət göstərən İran təşkilatlarının nümayəndələrini öz mənzilində görüşə dəvət etmişdi. Görüşdə İran konsulu da iştirak etmiş və müzakirələr nəticəsində təşkilatlar arasında birlik və koordinasiyanın təmin olunması məqsədilə birgə icraiyyə komitəsi yaradılması təklif edilmişdi. Hümmət qəzeti bu təşəbbüsü müsbət qiymətləndirmiş və Bakıda fəaliyyət göstərən İran təşkilatları arasında mövcud nifaqın aradan qaldırıldığını bildirmişdi (Hümmət, 6 mart 1918, s. 2–3). Həmin görüş və onun nəticələri ilə bağlı əlavə sənədlər mövcud olmasa da, Hümmət təşkilatının bu istiqamətdə göstərdiyi təşəbbüskarlıq İranlı fəhlələrin siyasi səfərbərliyi və bolşevik ideologiyasının yayılması baxımından diqqətəlayiq hesab oluna bilər.

### Mart Soyqırımı və Hümmətçilərin Mövqeyi

1918-ci ilin mart ayında baş vermiş hadisələr — sonradan tarixşünaslıqda Mart **soyqırımı** adlandırılan qətliamlar -Hümmət təşkilatının fəaliyyətinə və mövqeyinə ciddi təsir göstərmişdi. Hadisələrdən əvvəl, bir çox mətbuat orqanlarında olduğu kimi, "Hümmət" qəzeti də şəhərdəki mümkün təxribatlar barədə xəbərləri inkar edir, əhali arasında yayılan "bolşeviklərin silahları müsəlmanlardan yığmaq" planlarının əsassız olduğunu bildirirdi (Hümmət, 6 mart 1918, s. 2–3). Halbuki, Bakı Soveti İcraiyyə Komitəsinin bu barədə konkret qərarı mövcud idi.

Mart ayının ilk günlərində qəzet hələ də əməkdaşlıq və beynəlmiləlçilik çağırışları edirdi: “Erməni, müsəlman, rus, gürcü fəhlələri hamı qardaşdırlar” (Hümmət, 6 mart 1918, s. 1). Lakin hadisələrin qəfil və amansız şəkildə başlanması Hümmət təşkilatını çətin vəziyyətə saldı. Bir tərəfdən, soyqırımı törədənlərlə-yəni Bakı Sovetinin daşnak qüvvələri ilə-eyni siyasi düşərgədə olmaları təşkilatın müsəlman əhali arasında nüfuzuna ciddi zərbə vururdu. Digər tərəfdən isə, hümmətçilər də özləri daşnakların təzyiqləri və hücumlarına məruz qalmışdılar ki, bu da onların fəaliyyətinin birmənalı qiymətləndirilməsini çətinləşdirirdi.

Hadisələrin qarşısını almaq məqsədilə ilk təşəbbüslərdən biri martın 30-da Nəriman Nərimanovun evində keçirilmiş iclas olmuşdu. Burada o, Bakı Sovetinin lideri S. Şaumyanla görüşərək qarşıdurmanı sülh yolu ilə həll etməyə çalışmış və silahların neytral bir komitəyə təhvil verilməsini təklif etmişdi (Hümmət, 1 aprel 1918, s. 3). Lakin bu cəhdlər nəticə verməmiş və şəhərdə amansız qırğınlar baş vermişdi.

Hadisələrdən sonra “Hümmət” qəzetində yayımlanan materiallar təşkilatın daxili ziddiyyətlərini və ictimai narahatlığını əks etdirirdi. Əbdülzadə adlı bir ziyalının redaksiyaya göndərdiyi məktubda o, sosialist yoldaşlara müraciətlə belə sual edirdi: “Biz bu faciəni nə adlandıraq?” (Hümmət, 15 aprel 1918, s. 3). Redaksiya isə baş verənləri müsəlman ziyalılarının vaxtında düzgün təbliğat işi aparmaması ilə əlaqələndirirdi və onların bölgələrə gedərək əhali ilə maarifləndirici iş aparmasına çağırırdı.

Hadisələrin yaratdığı zərbə Hümmət təşkilatı daxilində psixoloji və ideoloji sarsıntılara səbəb olmuşdu. M. İsrafilbəyovun xatirələrində qeyd olunur ki, M. Əzizbəyov Sovetin növbəti iclasında çıxışdan imtina etmişdi (ARPİİİSSA, fond 268, siyahı 23, iş 272, vərəq 16). Təşkilat üzvləri ictimaiyyətə bu qırğınların izahını verməkdə çətinlik çəkirdilər. Nərimanov isə baş verənləri pisləyir, lakin yeni qurulmuş sovet hökumətini açıq şəkildə ittiham etmədən diqqəti vicdansızlığa yönəldirdi*: “...müsəlman fəqir-füqərasının əbəs yerə tökülən qanını yerdə qoymarıq...”* (Narimanov, 1989, s. 123; Hümmət, 3 aprel 1918, s. 4). Ardınca Şaumyan və Caparidzeyə ünvanladığı məktubda o, sovet hökumətinin bu “ləkəni” təmizləməli olduğunu vurğulayırdı (Hümmət, 3 aprel 1918, s. 4). Nərimanov daha sonra vəziyyəti birbaşa Leninə çatdırmaq məqsədilə M. İsrafilbəyovu sovetlərin növbəti qurultayına göndərmişdi və ona Leninə şəxsən məruzə etməyi tapşırmışdı. Həmçinin, Leninə ünvanladığı məktubda Hümmət təşkilatının Cənubi Qafqaz müsəlmanlarının yeganə siyasi təmsilçisi olduğunu qeyd edərək, daşnakların bolşevik ideologiyasına qarşı təhlükə olduğunu bildirmişdi (Narimanov, 1989). Mart soyqırımı, şübhəsiz, Hümmət təşkilatı daxilində parçalanmanı daha da sürətləndirmişdi. Ə. Əhmədov qeyd edir ki, hadisələrdən sonra təşkilat daxilində üç əsas ideoloji cərəyan – sağ

(Ə. Məmmədzadə, H. Əliyev, M. Əliyev, A. Yusifzadə), mərkəz (N. Nərimanov, D. Bünyadzadə, S. M. Əfəndiyev və b.), sol (M. Əzizbəyov, H. Sultanov, H. Terequlov, Q. Məmməd) – formalaşmışdı (Akhmedov, 2006). Bu isə təşkilat daxilindəki tərəddüdlərin artıq sistematik ideoloji böhrana çevrildiyini göstərirdi.

**Bakı Xalq Komissarları Soveti Hakimiyyəti və Hümmətçilər**

1918-ci ilin mart hadisələrindən sonra Bakı Soveti tərəfindən hakimiyyətin möhkəmləndirilməsi üçün atılan addımlarda Hümmət və Əkinçi (müsəlman eser) təşkilatlarının iştirakı xüsusi əhəmiyyət daşıyırdı. Aydın idi ki, qırğınların təsiri ilə gərginləşmiş ictimai mühitdə müsəlman əhali ilə münasibətlərin normallaşdırılması yalnız bu təşkilatların iştirakı ilə mümkün ola bilərdi. Aprelin 4-də bolşeviklərin Bakı Komitəsi Müsəlman Sosialistləri Bürosunun yaradılması qərarını qəbul etdi. N.Nərimanov və Ə.İsmayılovun rəhbərliyi ilə qurulan büro Hümmət və Əkinçi təşkilatlarının nümayəndələrindən təşkil olundu (Bolsheviki v borbe..., 1957, s. 336). Büronun ilk təklifləri sırasında erməni milli komitəsinin buraxılması, onun tabeliyindəki hərbi hissələrin şəhəri tərk etməsi və ya Sovetə tabe edilməsi, müsəlman əhalinin yaşadığı hissənin mühafizəsinin müsəlman qırmızı qvardiyaçılarına həvalə olunması və ərzaq məsələsində müsəlmanlara xüsusi diqqət yetirilməsi kimi tələblər yer alırdı (Bolsheviki v borbe..., 1957, s. 337). Büronun təşəbbüsü ilə yuxarı sinif şagirdləri və tələbələr üçün hərbi mükəlləfiyyət tətbiq edildi və 200 nəfərlik qvardiya dəstəsi formalaşdırıldı (Hümmət, 1 may 1918, s. 2). Lakin bu fəaliyyətlərə baxmayaraq, Hümmət təşkilatının idarəçilikdəki rolu məhdud idi. 9 mayda keçirilən iclasda D.Bünyadzadə açıq şəkildə bildirirdi: “Artıq Bakıda hökumət yaranıb, gərək daha Bakıda ikinci hökumət olmasın...” (Hümmət, 1 may 1918, s. 4). Bu ifadə təşkilatın faktiki olaraq informasiya dəstəkçisi statusunu qəbul etdiyini göstərir.

Mart soyqırımının yaratdığı qorxu mühitindən istifadə edən Sovet hakimiyyəti, İbrahim Heydərovun əvəzinə M.Əzizbəyovu qubernator təyin edərək onu kəndlərə təbliğata göndərdi (Azizbekov, 1976). Fatmai, Maştağa, Novxanı, Mərdəkan, Suraxanı və digər kəndlərdə sovet hakimiyyətini tanıyan qətnamələr qəbul edildi (Azimov, 1987). Hümmət və Əkinçi təşkilatlarının nümayəndələri bir sıra inzibati vəzifələrə təyin edildi. M.H.Vəzirov Torpaq Komissarı, N.Nərimanov Şəhər Təsərrüfatı və Himayədarlıq Komissarı, M.Əzizbəyov quberniya komissarı, M.İsrafilbəyov Lənkəran və Cavad qəzaları üzrə fövqəladə komissar, D.Bünyadzadə və H.Sultanov isə Bakı qəzasında əksinqilabla mübarizə üzrə səlahiyyətli nümayəndələr təyin olunmuşdular (Bolsheviki v borbe..., 1957, s. 484). Hümmətçilər zaman-zaman Sovet hökumətinin bəzi qərarlarına qarşı çıxmışdılar. Məsələn, Salyana 240 nəfərlik hərbi dəstə göndərilməsi qərarına etiraz edərək bildirirdilər ki, “onları quldurlar olan yerə

göndərmək lazımdır" (Hümmət, 22 aprel 1918, s. 1–2). Ərzaq problemi Hümmətin fəaliyyətində əsas prioritetlərdən biri idi. Xüsusilə Muğan bölgəsindən ərzaq daşınmasının qarşısını almaq məqsədilə Lənkəranda sabitlik yaratmaq üçün M.İsrafilbəyov may ayında fövqəladə komissar kimi bölgəyə göndərildi. Onun fəaliyyəti nəticəsində bir sıra kəndlər sovet hakimiyyətini qəbul etdilər (İsvestiya Bakinskogo Soveta, 24 iyun 1918, s. 4). May ayında keçirilən Bakı qəzası kəndlilərinin I qurultayı Hümmətin genişmiqyaslı təşkilati fəaliyyətinə nümunə oldu. Qurultayda Bakı Kəndli Deputatları Soveti və İcraiyyə Komitəsi formalaşdırıldı (Azimov, 1987, s. 275). Bu qurultay vasitəsilə Hümmət təşkilatı Bakı Sovetinin İcraiyyə Komitəsində də təmsil olunmağa başladı (İzvestiya Soveta, 31 may 1918, s. 3). Lakin bölgələrdə sovet hakimiyyətinə qarşı müqavimət mövcud idi. Qafqaz İslam Ordusunun uğurlu əməliyyatları və sovetləşdirmə prosesinin yarımçıq qalması Hümmətin mövqeyini zəiflətdi. İyunun 11-də təşkilatın yeni rəhbərliyi formalaşdırıldı: B.Şahtaxtinski sədr, B.Aşirov müavin, D.Bünyadzadə katib seçildi; N.Nərimanov, M.Əzizbəyov və M.İsrafilbəyov isə fəxri sədr olaraq müəyyən edildi (Bolsheviki v borbe..., 1957, s. 484). 1918-ci ilin yayında təşkilatın son fəaliyyətlərindən biri Bakıya ingilislərin dəvətinə etiraz olaraq mitinqlər keçirmək olmuşdu (Hümmət, 30 iyul 1918, s. 3). Lakin iyulun sonunda Bakı Xalq Komissarları Sovetinin süqutu Hümmətçilərin də aqibətini müəyyən etdi. M.İsrafilbəyov, D.Bünyadzadə və Q.Musabəyov Həştərxana köçdülər, və Hümmətin Bakıdakı fəaliyyəti müvəqqəti olaraq dayandırıldı.

**Nəticə**

1917–1918-ci illərdə Hümmət təşkilatının fəaliyyətinin təhlili, müsəlman sosialistlərin mövcud tarixi-siyasi şəraitdə hansı ideoloji, sosial və milli faktorlarla qarşılaşdıqlarını üzə çıxarır. Fevral inqilabından sonra Azərbaycanda baş qaldıran milli oyanış və bu prosesin getdikcə milli hərəkat xarakteri alması, bölgədə mövcud olan milli ziddiyyətlər fonunda Hümmətin siyasi mövqeyinin möhkəmlənməsinə əngəl törədirdi.

Azərbaycan cəmiyyətində sinfi diferensasiyanın zəifliyi və bolşevizmin "rus əqidəsi" kimi qəbul olunması şəraitində Hümmət Müsavat kimi milli yönümlü və kütləvi təsirə malik bir siyasi partiya ilə rəqabətdə geri qalırdı. Eyni zamanda RSDFP-nin yerli komitəsinin Bakıda müstəqil fəaliyyət göstərməsi də Hümmətin öz sosial bazasını genişləndirməsinə imkan vermirdi. Hümmətin bolşevik təşkilatına tabe "əlavə" statusunda çıxış etməsi, təşkilat daxilində narazılıqlar doğurmuş və bu, gələcəkdə açıq milli təmayüllü cərəyanların formalaşması ilə nəticələnmişdi.

1917-ci ilin sonlarından başlayaraq Cənubi Qafqazda milli hərəkatların güclənməsi və sosial-siyasi gərginliyin artması, Hümmət təşkilatının taktikasında dəyişikliklərə səbəb

olmuşdu. Milli ziddiyyətlərin kəskinləşdiyi şəraitdə hümmətçilər xalqın təhlükəsizliyi naminə milli qüvvələrlə əməkdaşlığa meyllənmiş və bəzi hallarda birgə fəaliyyət göstərmişdilər. Lakin bu əməkdaşlıq onların beynəlmiləlçi mövqeyini zəiflətmiş, ideoloji təbliğatın təsir dairəsini məhdudlaşdırmışdı.

1918-ci ilin martında baş verən soyqırımı Hümmətin mövqelərinə ən ağır zərbəni vurdu. Hümmət təşkilatının həm sovet hakimiyyətinin tərkibində qalması, həm də öz sosial bazasını itirməsi, təşkilat daxilində parçalanmaya səbəb olmuşdu. Bu vəziyyətdə bəzi üzvlər ideoloji baxımdan sağ, mərkəz və sol cərəyanlara bölünərək siyasi mövqelərini yenidən müəyyən etməyə çalışırdılar. Bununla belə, sovet ideologiyasına sadiq qalan hümmətçilər Bakı Xalq Komissarları Soveti (XKS) yaradıldıqdan sonra idarəetmədə iştirak etməyə çalışmış, müsəlman əhali arasında sovet hakimiyyətinə rəğbət yaratmaq məqsədilə təbliğat aparmışdılar.

Bolşevik hökuməti də siyasi reallıqlarla hesablaşaraq, qəzaların idarəçiliyində hümmətçi kadrlardan istifadə etməyə başladı. Lakin bölgələrdəki ağır sosial-iqtisadi və təhlükəsizlik problemləri qarşısında Hümmət təşkilatı real təsir imkanlarından məhrum idi. Beləliklə, sosialist ideologiya ilə milli reallıqlar arasında qalmış Hümmət təşkilatı, 1918-ci ilin yayında yaranan şəraitə uyğun olaraq fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı.

## Kaynaklar

Akhmedov, A. (2006). *Natsionalnoye dvizheniye, partii i obshchestvennyye deyateli Azerbaydzhana v 1918–1925 godakh glazami ochevudtsa*. İzdatel’stvo Nurlan. (In Russian).

ARPİİİSSA, fond 268, siyahı 23, iş 272. (Tarixsiz). *Stenogramma vospominaniy t. Kadırlı o rabote organizatsii “Gummet”*. (In Russian).

ARPİİİSSA, fond 268, siyahı 23, iş 36. (1917). *Aramyan A. A. Ob organizatsii boevoy druziny*. (In Russian).

ARPİİİSSA, fond 276, siyahı 2, iş 156. (Tarixsiz). *Stenogramma vechera vospominaniy organizatsionnoy gruppy*. (In Russian).

ARPİİİSSA, fond 303, siyahı 1, iş 46. (Tarixsiz). *Vospominaniya Abbasova*. (In Russian).

ARPİİİSSA, fond 456, siyahı 18, iş 50. (Tarixsiz). *Stenogramma besedy s Ashurbeyli İsa*. (In Russian).

ARPİİİSSA, fond 609, siyahı 1, iş 206. (Tarixsiz). *Pismo Narimanova*. (In Russian).

*Azərbaycan tarixi (V cild, 1900–1920)*. (2001). Elm nəşriyyatı.

*Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu (Üç cilddə).* (2010). *Xatirələr.* Çaşıoğlu nəşriyyatı.

Azimov, G. (1987). *Velikiy Oktyabr v Azerbaydzhane*. Az.Gos. İzdatel’stvo. (In Russian).

Azizbekov, M. (1976). *Plamenniy borets za vlast sovetov: Rechi, dokumenty i materialy*. Az.Gos. İzdatel'stvo. (In Russian).

Bagirova, İ. (1998). *Politicheskiye partii i organizatsii Azerbaydzhana v nachale XX veka*. Elm. (In Russian).

*Bolsheviki v borbe za pobedu socialisticheskoy revolyutsii v Azerbaydzhane: Dokumentı i materiali 1917–1918 gg*. (1957). Azərnəşr. (In Russian).

Drabkina, Y. (1931). Tyurkskiy proletariat v revolyutsii i grazhdanskoy voyne. *İstoriya proletariata SSSR*, (5), 79–110. (In Russian).

Hümmət. (1917, 10 oktyabr). *Milli Şurada iclas. Kaş bu hürriyyət olmayaydı*.

Hümmət. (1917, 12 sentyabr). *Müsəlman Komitəsi Şurası*.

Hümmət. (1917–1918). *Firqə həyatı*. Müxtəlif tarixli saylar.

Hümmət. (1918, 1 aprel). *Qanlı faciədən 4 saət qabaq*.

Hümmət. (1918, 15 aprel). *İdarəyə məktub*.

Hümmət. (1918, 18 iyul). *Müsəlman Komitəsi*.

Hümmət. (1918, 22 aprel). *Səlyan xüsusunda doktor M. İsrafilbəyovun müraciəti*. (In Azerbaijani).

Hümmət. (1918, 3 aprel). *Bizi aldatıyordılar və aldatdılar*.

Hümmət. (1918, 6 mart). *Fəhlələrə*.

Hümmət. (1918, 6 mart). *Gəncədə*.

İbrahimov, Z. (1957). *Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi*. Azərnəşr.

İbrahimova, A. (2010). *Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917–1918-ci illər)*. Elm nəşriyyatı.

İsmailov, E. (2012). *Stepan Shahumyan – obrechennıy na zabveniye: Portret legendarnogo kommunara bez retushi*. Şərq-Qərb nəşriyyatı. (In Russian).

İsvestiya Bakinskogo Soveta. (1917, 11 iyun). *Protokol zasedaniya Soveta 6 iyunya*. (In Russian).

İsvestiya Bakinskogo Soveta. (1918, 24 iyun). *Ekstrennaya zasedaniya Bakinskogo Soveta*. (In Russian).

İsvestiya Bakinskogo Soveta. (1918, 31 may). *Tordzhesvennaya zasedaniye s Sovetom Krestyanskikh Deputatov*. (In Russian).

İsvestiya Bakinskogo Soveta. (1918, 6 iyul). *V Uezdnom ispolnitelnom komitete*. (In Russian).

Kaspiy. (1917, 15 iyun). *Shakhtakhtinskiy, B. K delu organizatsii trudyashchikhsya musulmanskoy massy*. (In Russian).

Kaspiy. (1917, 20 aprel). *Musulmanskiy syezd*. (In Russian).

Kaspiy. (1917, 27 may). *Baku 27 maya*. (In Russian).

Narimanov, N. (1971). *Məqalələr və nitqlər (I cild, 1896–1920).* Azərnəşr.

Narimanov, N. (1989). *İzbrannyye proizvedeniya (Tom 2, 1918–1921).* Azərnəşr. (In Russian).

Ocherki Kommunisticheskoy partii Azerbaydzhana. (1963). Az.Gos. İzdatel'stvo. (In Russian).

Rəsulzadə, M.Ə. (2013). *Əsərləri (I cild)*. Qanun nəşriyyatı.

Rustamova-Togidi, S. (2013). *Shemakha. Mart–iyul 1918 g. Azerbaydzhanskiye pogromy v dokumentakh (Tom 1).* (Yayın yeri yoxdur). (In Russian).

Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, fond 255, siyahı 7, iş 14, vərəq 25. (Tarixsiz). *Əziz Şərifin gündəliyi*.

Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, fond 255, siyahı 6, iş 157. (1930). *Şərif, A. Begliye zametki o partii "Gummet"*. (In Russian).

Suny, R. G. (1990). *Bakü Komünü: Rus devrimində milliyyət və sınıf* (K. Emiroğlu, Çev.). Uluslararası Yayıncılık. (Original work published 1972).

Swietochowski, T. (1978). The Himmat party: Socialism and the national question in Russian Azerbaijan, 1904–1920. *Cahiers du Monde Russe,* 19(1–2), 119–142.

Zakavkazskiy Seym. (1919, 19 fevral). *Stenograficheskiy otchyot. Sessiya pervaya. Zasedanie sedmoye*. (In Russian).

Znamya Truda. (1917, 19 oktyabr). *Na Bibi-Eybate*. (In Russian).

***Telif ve Lisans Bildirimi***

***Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.***